# Petre ROMAN: "Azad edilmiş ərazilərin bərpası üzrə planların tam reallaşdırılacağına əminəm"

*"Azərbaycan Prezidenti İlham Əliyevin işğaldan azad edilmiş ərazilərin bərpası üzrə planlarının tam reallaşdırılacağına əminəm".*

AZƏRTAC xəbər verir ki, bunu Rumıniyanın sabiq Baş naziri Petre Roman "COVID-19-dan sonrakı dünya" mövzusunda keçirilən VIII Qlobal Bakı Forumu çərçivəsində deyib.

İkinci Qarabağ müharibəsinin Azərbaycanın uğurlu Qələbəsi ilə nəticələnməsinə diqqət çəkən sabiq Baş nazir bildirib: "Azərbaycan həmişə düzgün və ədalətli yolla gedib. Ölkəniz BMT Təhlükəsizlik Şurasının qətnamələri və beynəlxalq hüquq çərçivəsində mübarizə aparıb".

Azərbaycan.- 2021.-5 noyabr.- S.8.